

Sona SƏLİMLİ
*Qərbi Kaspi Universitetinin III kurs tələbəsi*

# İKİ SÖZÜN BİRLƏŞMƏSİ

İki latın sözünün birləşməsindən əmələ gələn "psixologiya" özündə dərin mənaları və mövzuları birləşdirən ən qədim elm sahələrindən biridir. Hələ çox-cox əvvəlki dövrlərdə insanların başqalarına, ya da başqalarında axtardıqları "öz"lərinə qarşı olan marağı onları belə bir elmin yaranmasına, bu sahədə ilk addımlarının atılmasına gətirib çıxarmışdır. Bir qayda olaraq qədim insanların əksəriyyətini daha az inkişaf etmiş, "barbar" həyat tərzi sürən icma nümayəndələri kimi qəbul edirik, hərçənd həmin insanların da arasında parlaq zəkaya malik olan, onları narahat edən suallara

cavab tapmaq istəyən adamlar olub. “Mən kiməm?”, “Ruh nədir?”, “yuxu nədir?”, “Sevgi nədir, biz niyə sevir və nifrət edirik?” kimi suallar, əminəm, hər kəsin ağlından bir dəfə də olsun keçmişdir. Elm tarixindən məlumdur ki, bir çox elm sahələri bizə xırda və mənasız görünən çox vacib nüanslardan bizim o nüanslarla bağlı ilk növbədə özümüzə verdiyimiz suallardan meydana gəlib, sonradan, əlbəttə ki, inkişaf edib. Eynən başına alma düşən və özünə: “Axı, görəsən, bu alma nəyə görə yerə düşür, havadan asılı qalmır?” – deyə sual edən Nyutonun hadisəsində olduğu kimi. Bilirsiz ki, sonda Ümumdünya Cazibə Qanunu da ortaya çıxmışdı. Dünyamıza belə parlaq zəkalar gəldikcə indi sahib oduğumuz biliklər və elm sahələri inkişaf etmişdir. Bu zəngin, bənzərsiz elmlərdən biri də psixologiyadır və bu mənim sevimli ixtisasımdır. Hələ abituriyent ikən bu seçimi etdim və özümü bu ixtisasa uyğun gördüm. Məncə, insanların problemlərinin həllinə kömək etmək kimi gözəl bir şey yoxdu bu dünyada; rahatlıq tapan insanın üzündə yaranan gülüş, təbəssüm eyni dərəcədə mənim üzümə də qonur, yaxud qona bilər. Xatırlayıram, “tibbin atası” sayılan İbn Sinanın indi sitat gətirəcəyim gözəl bir fikrini oxuyandan sonra psixologiyaya olan marağım daha da artmışdı: “İnsanları birinci sözlə, sonra bitki ilə, yalnız sonra bıçaqla sağaldın”.

Bu elm başqalarını tanımağa kömək etməklə yanaşı, mənə özümü də tanıtdırdı, sadəcə, ağılın bəs olmadığı, həm də müdrikliyin vacibliyini, dava ilə deyil, eləcə danışaraq hər şeyin həllinin tapıla biləcəyini, insanın bir hərəkəti ilə onun xarakterinin və temperamentinin aydınlaşdırıla biləcəyini öyrətdi. Bu ixtisasın ən gözəl tərəflərindən biri də yalnız fərdlərə deyil, həm də kütlələrə müraciət etmə və təsir eləmək gücünə sahib olmasıdır. Ticarətdən siyasətə, tibbdən tutmuş, ailə problemlərinə qədər bir çox vacib sahəni və məsələni əhatə edən bu ixtisas gələcəyi sanki öz əllərində tutur. Əlbəttə, hər bir layiqli vətəndaş kimi, mən də aldığım peşəkar bilikləri həm də ölkəmi daha yüksək yerlərə aparmaq üçün istifadə etmək istəyirəm. Əminəm, mənim kimi düşünən çoxlu gənc var.

Mən bu elmin dərinliklərini Qərbi Kaspi Universitetində öyrənməyə qərar verdim. “Yaxşı ki, bu universiteti seçmişəm” dedirdən ilk şey isə əziz müəllim heyəti oldu. Adətən, müəllim-tələbə münasibətlərində tələbələrin üzərinə daha çox payın düşdüyü, müəllimlərin sadəcə, yolgöstərən olduğu düşünülsə də, hesab edirəm ki, həqiqi müəllimlər tələbənin həyatında daha vacib və daha böyük rol oynayır, hətta bəzi tələbələr müəllimlərini özləri üçün yaxşı mənada “büt”ə çevirirlər. Bəzi müəllimlər ixtisas dərsi verməklə yanaşı, həyat dərsi də verirlər; yaxşı müəllim bir tələbə üçün hər şeydən qiymətlidir. Mən özümü belə müəllimlərin əhatəsində hiss etdiyim üçün şanslı saya bilərəm. Keçdiyim iki kurs ərzində və bu universitet sayəsində bir çox dəyərli müəllimlərlə qarşılaşdım, onların sayəsində əsla öz ixtisasımdan soyumadım, bu elmə daha da sıx bağlandım, onlar bu elmi mənim üçün daha da maraqlı etdilər. Pis, yaxşı müəllim və tələbə var demək istəmirəm, çünki psixoloji nöqtədən baxsam, bu həyatda pis, ya da yaxşı insan deyilən birmənalı anlayış yoxdur; biri üçün pis ola biləcək müəllim, tələbə, ya da insan, digəri üçün ən sevimli müəllim, dost, ya tələbə yoldaşı ola bilər. Ona görə də deyirəm ki, işinin həqiqi peşəkarı olan müəllimlərlə qarşılaşdım və buna görə öncə onları bir yerə toplayan Qərbi Kaspi Universitetinə, sonra isə həmin müəllimlərin özlərinə dərin təşəkkürlərimi bildirirəm.

